# Həmişə qabacıllar sırasında



***Onu çoxdan tanıyıram. Həmişə də alnıaçıq, üzüağ görmüşəm. Bütün bunlar təbii ki, ilk növbədə halal zəhmətin, zəngin təcrübənin bəhrəsidir.***

***Sabirabad Rayon Mədəniyyət Şöbəsinin müdiri kimi Böyükağa Həmidovun, onun rəhbərlik etdiyi kollektivin, mədəni-maarif müəssisələrinin işindən söhbət açacağıq. İndi...***

***İndi isə Böyükağa müəllimin rayonda uğurla daşıdığı digər missiyadan danışaq. Bu, onun üçün bütün vəzifələrin nəcibi, ucası və alisidir.***

Ağsaqqallıq! Bu nüfuzu ona məsuliyyətliliyi, qayğıkeşliyi, işinə ürəkdən bağlılığı, yüksək təşkilatçılıq bacarığı, xoş ünsiyyəti, mehriban davranışı, sözü ilə işi, vədi ilə əməli arasındakı vəhdət qazandırmışdır.

Bölgədə elə bir möhtəşəm tədbir yoxdur ki, o qatılmasın. Atılacaq hər addımda, görüləcək hər işdə onun məsləhəti gərəkdir. Rayona gələn ən hörmətli qonaqlar da Böyükağa müəllimin tərəfindən qarşılanmasından xüsusi məmnunluq duyur. Ağsaqqallar şurasının sədri tək o fəaliyyətini rayon icra hakimiyyətinin başçısının göstərişləri ilə tənzimləyir. Rayon rəhbərinin mədəniyyətə göstərdiyi qayğıdan da razıdır.

Böyükağa Həmidovun söhbətində məntiqli, sözündə sərrast olması təsadüfi deyil. Bütün bunların kökündə qüvvə və bacarığına inam, zəngin təcrübə, zəhmətkeşlik, çətinlikdən qorxmamaq, problemlərin ləğvi istiqamətində yorulmaq bilmədən çalışmaq durur.

-Rayonun mədəni-maarif müəssisələrinin 2004-cü ildə gördüyü işlərə nəzər yetirməklə bir daha bunun şahidi olacağıq.

Rayonun mədəni-maarif müəssisələri "Mədəniyyət haqqında" qəbul edilmiş qanunu, Respublika Prezidentinin fərman və sərəncamlarını, Mədəniyyət Nazirliyinin əmr və göstəricilərini rəhbər tutaraq il ərzində mədəniyyətin inkişaf etdirilməsi sahəsində xeyli işlər görmüşlər.

Sabirabad Rayon Mədəniyyət Şöbəsi tabeçiliyində olan 46 klub müəssisəsi, 80 kitabxana, Ü.Hacıbəyov adına 7 illik uşaq musiqi məktəbi və tarix-diyarşünaslıq muzeyi vasitəsilə rayon əhalisinin mədəni-xidmət işini həyata keçirmişdir. Həmin müəssisələrdən 322 nəfər mədəni-maarif işçisi fəaliyyət göstərmişdir ki, bunlardan 23 nəfəri ali, 59 nəfəri orta ixtisas, qalanları isə ümumi orta təhsilli olmuşdur.

Rayonun mədəni-maarif müəssisələrində son illərdə maddi-texniki bazasının yaxşılaşdırılması sahəsində xeyli işlər görülmüşdür.

M.Ə.Sabir adına mərkəzi kitabxana, Ü.Hacıbəyov adına 7 illik uşaq musiqi məktəbi, tarix-diyarşünaslıq muzeyi inventar və avadanlıqlarla təmin edilmişdir. H.Əliyev adına mədəniyyət evinə dörd ədəd kondensaner (soyuducu və istilik verən) alınmış və istifadəyə verilmişdir.

Qaratəpə kənd mədəniyyət evi təmirdən çıxandan sonra yumşaq və bərk inventarlarla təmin edilmişdir.

Rayon mədəniyyət evinə mərkəzi kitabxanada, uşaq kitabxanasında, tarix-diyarşünaslıq muzeyində, Həşimxanlı, Qaratəpə, Şəhriyar mədəniyyət evlərində və kitabxanalarda əsaslı, Cavad, Surra, Nərimankənd, Kürkəndi, Ulacalı, Qaralar, Muğangəncəli, Cəngən, Moranlı kənd mədəniyyət evlərində və kitabxanalarında cari təmir işləri aparılmış, işçilərin işləməsi üçün münasib iş şəraiti yaradılmışdır.

Tarixi hadisələr və bayramlar, habelə yubileylərlə bağlı ardıcıl tədbirlər hazırlanıb həyata keçirilmişdir.

H.Əliyev adına mədəniyyət evi yeni il şənliyi keçirmək üçün fəvvarələr meydanında və foyedə yolka bəzənmişdir. Yolka şənliyinə şəhərin bütün məktəbləri dəfət olunmuşlar. Şənlik üç gün davam etmişdir.

"Novruz" bayramını mütəşəkkil keçirmək üçün ardıcıl tədbirlər hazırlanıb həyata keçirilmişdir.

Bayramın keçirilməsində rayon məktəbləri, Ü.Hacıbəyov adına 7 illik uşaq musiqi məktəbinin yeniyetmələri və rayon mədəniyyət evinin Q.Quliyev adına XÇAA-nın kollektivləri daha yaxından iştirak etmişdir. Bayram tədbirlərində Həşimxanlı kənd mədəniyyət evinin direktoru həmyerlimiz B.Babayevin rəhbərliyi ilə pəhləvanlar qrupunun və A.İsgəndərov adına xalq teatrının kollektivinin çıxışları daha maraqlı olmuşdur.

Mart ayının 21-də şəhər bayram şənliyi Mədəniyyət sarayının qarşısındakı fəvvarələr meydanında davam etmişdir. Qaratəpə, Qəzli, Güdəcühür, Şəhriyar, Surra və digər klub müəssisələrində Novruz şənlikləri keçirilmişdir.

Rayonun Mədəniyyət sarayında əlamətdar tarixi günlərlə əlaqədar tədbirlər keçirilmişdir. 20 yanvar, Xocalı soyqırımı, 31 mart Azərbaycanlıların soyqırımı günü, mərhum prezidentimiz Heydər Əliyevin anma mərasimi və digər bu kimi hadisələrlə bağlı ədəbi-bədii kompozisiyalar göstərilmişdir.



Mədəniyyət sarayının konsert-təşviqat briqadası rayonun Qaratəpə kəndində yerləşən "N" saylı hərbi hissədə tez-tez əsgərlərin qonağı olurlar. Rayonun bütün mədəri-maarif müəssisələrində Yeni il bayramı, 8 mart Beynəlxalq Qadınlar günü, Novruz bayramı günü, 15 iyun Qurtuluş günü və digər tədbirlər təntənə ilə qeyd olunmuş, ümumrayon tədbirləri keçirilmişdir.

Azərbaycan Respublikasının 13-cü ildönümü münasibətilə Heydər parkında geniş tədbir keçirilmişdir. A.İsgəndərov adına Xalq teatrının və Cəngən mədəniyyət evi bədii öz fəaliyyət kollektivinin verdikləri konsertlər və yumoristik səhnəciklər tamaşaçılar tərəfindən hərarətlə qarşılanmışdır. İ.İsgəndərov adına xalq teatrının kollektivi 2004-cü ildə S.S.Axundovun "Tamahkar" komediyasını hazırlayıb tamaşaçılara təhvil vermişlər. Hazırda teatrın kollektivi Azərbaycanın görkəmli yazıçısı İ.Əfəndiyevin anadan olmasının 90 illiyi münasibətilə "Qəribə oğlan" pyesi və "Tar" hekayəsi üzərində işləyirlər.

Müstəqilliyimizlə bağlı rayon tarix-diyarşünaslıq müzeyində xeyli işlər görülmüşdür. XX əsrin üçüncü minilliyinin qarşılanması və Dövlət müstəqilliyimizin 10-cu ildönümü ilə bağlı fərman ilə əlaqədar muzeydə otaq guşə yaradılmışdır. Muzeydə "Prezidentimiz və mədəniyyətimiz", "Dövlət müstəqlliyimizin bərpası", "H.Əliyev Sabirabadda" və sair sərgilər təşkil edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin məlum fərmanı ilə əlaqədar Sabirabad Rayon Mədəniyyət Şöbəsində gənclərlə mütəmadi işlər aparılır. Hər il fevralın 2-də "Gənclər günü" təntənəli qeyd olunur. Gənclər günü münasibətilə mədəniyyət evi və klublarda stolüstü oyunların yarışı keçirilir. Qaliblərə hədiyyələr təqdim olunur.

Yeniyetmə və gənclər arasında cinayətkarlığa və narkomaniyaya qarşı profilaktiki işlər aparılır. Bununla əlaqədar mədəni-maarif müəssisələrində polis şöbəsinin əməkdaşları ilə gənclərin görüşü keçirilmişdir.

Rayonun yaşayış məntəqələrində istedadlı və qabiliyyətli gəncləri aşkar etmək məqsədilə hər ay klub müəssisələrində bədii-özfəaliyyətə baxış keçirilir.

Mədəniyyət şöbəsinin tərtib edilmiş iş planında hərbi-vətənpərvərlik, əhali arasında soy və kökə bağlılıq hisslərinin aşılanması, Azərbaycanın keçmiş və gələcəyinə həsr edilmiş tədbirlər, ordu sıralarına çağırılan gənclərin hərbi komissarlıqdan təntənəli yola salınmaları mərasimləri, döyüş bölgələrində xidmət edən əsgərlərə mədəni xidmət göstərmək Azərbaycanın bütövlüyü uğrunda vuruşan döyüşçülər və şəhid ailələri ilə gənclərin görüş gecələri və s. mövzularda tədbirlər işimizin əsasını təşkil edir.

Gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi, Milli ordu hissələrində xidmət göstərən əsgər və zabitlərə ruh yüksəkliyi və gələcəyə inam hissi aşılamaq, xalqımızın tarixi qəhrəmanlığı barədə Azərbaycan Respublikası Prezidentinin tövsiyələri və bu barədə Mədəniyyət Nazirliyinin 19 fevral 1998-ci il tarixli əmrini rəhbər tutaraq rayonun H.Əliyev adına mədəniyyət sarayında M.Ə.Sabir adına Mərkəzi kitabxanada və digər mədəniyyət ocaqlarında "Sabirabad şəhidləri", "Qarabağın qara günləri", "Qarabağın dünəni və bu günü" mövzularında daima foto stendlər təşkil edilmişdir.

H.Əliyev adına rayon mədəniyyət sarayında "Ataların döyüş yolu oğulların yoludur", Qəzli kənd kitabxanasında "Vətəni qorumaq hamımızın borcudur", "Şəhid qanı yerdə qalmaz" mövzularında tədbirlər keçirilmişdir.

Gənclərin hərbi xidmətə çağırışı ilə əlaqədar olaraq rayonun hərbi komissarlığında yola salınma mərasimləri keçirilir. Yola salınma mərasimində Qaratəpə kənd mədəniyyət evinin bədii-özfəaliyyət kollektivinin üzvləri rəngarəng konsert proqramı ilə çıxış etmişlər.



Narkotik vasitələrin, psixator maddələrin və Prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə əlaqədar Respublika Prezidentinin 15 iyul 2000-ci il tarixli 371 saylı fərmanı rayon mədəni-maarif işçilərinin seminar müşavirəsində ətraflı müzakirə olunmuş və görüləcək işlərin əsas istiqamətləri müəyyənləşdirilmişdir.



Həmin müzakirənin nəticəsi olaraq əhalinin xüsusilə gənclərin həyat tərzini saf mənəvi dəyərlər əsasında formalaşması üçün müxtəlif məzmunlu tədbirlərin keçirilməsi, bədii özfəaliyyət kollektivlərinin təşkili, onlara uşaq və yeniyetmələrin, gənclərin cəlb olunması işi daim diqqət mərkəzində saxlanılır.

Hal-hazırda narkomaniya böyük bir bəlaya çevrildiyi halda və ona qarşı ciddi müzakirə aparıldığı bir vaxtda gənclərin həmin bəlaya düçar olunmasının qarşısını almaq və cəmiyyətimizdə gənclərin mənəvi aləminin saflaşdırılması məqsədilə keçirilən tədbirlərdən "20 yanvar", ədəbi-bədii kompozisiyası, "Bilməz idim ayrılıq var, ölüm var", "Qisas qiyamətə qalmaz", "Tarixin qan yaddaşı" və bu kimi teatrlaşmış ssenari kompozisiyalar tamaşaçılar tərəfindən həqarətlə qarşılanmışdır.

Son vaxtlar Sabirabad MKS-də bu sahədə müəyyən işlər görülmüş və görülməkdədir. Hər şeydən əvvəl istər mərkəzi kitabxana, istərsə də şəhər və kənd filiallarının bütün işçilərinə hazırlanmış tədbirlər planı barədə, narkomaniyanın mənbəyi, areal və səbəbləri barədə məlumat verilmiş, bununla yanaşı bir təbliğatçı kimi uşaqları, yeniyetmələri bu yoldan çəkindirmək, narkomaniyanı əsrimizin bəlası, taunu, ən qorxulu xəstəlik olduğunu dərk etməklə onlara kömək etməyin zəruriliyi bildirilmişdir.

Mədəni-maarif müəssisələrində fəaliyyət göstərən bədii-özfəaliyyət kollektivləri yeniyetlərin və gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi üçün rayonun Heydər parkında bir sıra tədbirlər həyata keçirilmişdir. Rayon mədəniyyət sarayında polis şöbəsinin bu sahəyə baxan əməkdaşları ilə gənclərin görüşü keçirilmişdir.

M.Ə.Sabir adına mərkəzi kitabxana, uşaq kitabxanası, gənclər kitabxanası, 2 şəhər kitabxanası və 75 kənd kitabxana filialları vasitəsilə rayon əhalisinə kitabxana xidməti göstərilmişdir. Həmin kitabxanalarda 114 nəfər işçi çalışır ki, bunlardan 8 nəfəri ali, 39 nəfəri orta ixtisas, qalanları isə orta təhsillidirlər.

MKS-üzrə 2004-cü ildə 34968 nəfər oxucuya xidmət edilmişdir. Sistem üzrə 498606 nüsxə kitab fondu olmuşdur. Ümumi kitab verilişi isə 573440 nüsxə olmuşdur. 2004-cü ildə 643 nüsxə yeni kitab alınmışdır.

Sistem üzrə oxuculara kitabxana xidmətini yaxşılaşdırmaq üçün məlumat biblioqrafiya şöbəsi dövrü mətbuatda çıxan məqalələrin analitik təsviri yazaraq bölmələr üzrə kartotekada yerləşdirilmişdir.

Muzeyin fəaliyyəti respublika və rayon mətbuatında, televiziyada geniş işıqlandırılmış, Mədəniyyət Nazirliyi tərəfindən mükafatlandırılmışdır.

Sabirabad Rayon Mədəniyyət Şöbəsi nəzdində Ü.Hacıbəyov adına 7 illik uşaq musiqi məktəbi fəaliyyət göstərir. Musiqi məktəbi 2004/2005-ci tədris ilində 402 şagirdə musiqi təhsili verir. Musiqi məktəbində fortepiano, tar, qarmon, nağara və səs şöbələri fəaliyyət göstərir.

2003/2004-cü tədris ilində 58 nəfər şagird məktəbi bitirmişdir. 2004/2005-ci tədris ilində 72 şagird məktəbə qəbul edilmişdir. 2004-cü il ərzində məktəbdə bir neçə mədəni-kütləvi tədbirlər həyata keçirilmişdir. Bunlardan: "20 yanvar", XX əsrin ən dəhşətli faciəsi olan "Xocalı soyqırımı"nın ildönümləri, "8 mart Beynəlxalq qadınlar bayramı", elimizin milli bayramı olan "Novruz" bayramını göstərmək olar.

***Sonda Böyükağa müəllim dedi:***

***-Arxada qalan 2004-cü ildə gördüyümüz işlərin qısa siyahısı bundan ibarətdir. İnanıram ki, 2005-ci ildə qazanacağımız göstərici daha yüksək olacaqdır. Bunun üçün əlimizdən gələni əsirgəməyəcəyik...***

**Y. Araplı**